# ATAMIN YAŞAM YOLU

## *Professor Nizami Tağısoyun 70 ilinə düşüncələrim*

Əslində, atam haqqında yazmağı lap çoxdandır ki, götür-qoy edirdim. Haradan başlayıb, haraya getmək, hansı məsələlər üzərində daha çox diqqətimi cəmləşdirmək barədə çox düşünüb-daşınırdım. Azərbaycanda bədii-poetik, fəlsəfi-estetik, elmi-nəzəri mülahizələri ilə xalqımızın yaddaşında daşlaşan xeyli təfəkkür sahibləri vardır. Onların çoxu şübhəsiz ki, ən yüksək dəyərlərə layiqdir. Amma mən burada qeyrilərindən danışmaq yox, məhz belələri sırasında dayana biləcək öz atam barədə söhbət etmək fikrindəyəm. Bu heç də mənim şəxsi korporativ maraqlarımla bağlı deyil. Çünki atam artıq bu gün Azərbaycan ədəbiyyatşünaslığında, ədəbi tənqidində, türkoloji ədəbiyyatşünaslığında, tərcüməşünaslıqda, nəzəriyyə və praktikasında, o cümlədən, Azərbaycan ali təhsil məkanında özünü təsdiqləmiş, elmi-nəzəri fikrə öz möhürünü vurmuş tanınmış təfəkkür sahiblərindəndir. Artıq neçə onilliklərdir ki, onun imzası təkcə Azərbaycanda deyil, həm də Rusiyada, Ukraynada, Gürcüstanda, Özbəkistanda, Türkiyədə, Tatarıstanda, Türkmənistanada, Qazaxıstanda, Qaraqalpaqstanda, Başqurdstanda, Dağıstanda, Qaraçayda, Malkarda, Noğayda və digər xalqların alimləri arasında tanınmaqdadır. Atam, demək olar ki, bütün ömrünü ali məktəbə, elmi-nəzəri təfəkkürə, ədəbiyyatşünaslığın çeşidli problemlərinin araşdırılmasına həsr edib. Atamın gördüyü işlərin ən mühüm fərqli cəhəti ondan ibarətdir ki, o, hansı ədəbiyyat, hansı mütəfəkkir, hansı ədib, hansı problematika, hansı məsələ haqqında danışır, danışsın, o, predmetə və obyektə tamamilə özəl mövqedən, fərqli rakursdan yanaşmağa çalışır. Bu, atamın elmi yaradıcılığını digərlərinin yaradıcılığından fərqləndirən ən mühüm xüsusiyyətdir.

Atamın Azərbaycan ədəbiyyatşünaslığında, ali təhsil məkanında inkişafı az qala mənim gözlərimin qabağında olmuşdur. Bizi minbir əziyyətlə böyüdəböyüdə qısa zaman kəsiyində filologiya elmləri namizədi, onun ardınca filologiya elmləri doktoru elmi dərəcələrinə layiq görülmüş, professor elmi adına yiyələnmişdir. Kənardan baxdıqda sanki bunların hamısı olduqca asan, bir göz qırpımında baş vermişdir. Lakin mən atamın bu rütbələri əldə etməsi üçün nə qədər böyük əzab-əziyyət çəkdiyinin, yorulmadan zəhmət sərf etdiyinin canlı şahidiyəm.

Atam üçün həyatda heç nə asan başa gəlməyib. Kənd məktəbini əla qiymətlərlə başa vurub, institutu fərqlənmə diplomu ilə bitirib, kənd məktəbində işləyə-işləyə aspiranturada təhsil alıb, bəzi ermənipərəstlərin onun qarşısına sədd çəkməsinə baxmayaraq, uğurla dissertasiya müdafiə edib, özünün istedadını bütün varlığı ilə ortaya qoyub. Kiminsə köməyi olmadan, şükürlər olsun Allaha ki, bu döyüşlərin hamısından alnıaçıq, üzüağ çıxıb. Siz bilirsinizmi ki, insanın özünə güvənib bütün bunları etməsi nə qədər çətindir?! Bunların öhdəsindən atam daim layiqincə gələ bilib. Hə, bir də Allah rəhmət eləsin atamı kənd məktəbindən aspiranturaya tövsiyə etmiş böyük İnsan, dəyərli alim Əməkdar Elm Xadimi professor Həbib Bayram oğlu Babayevə. Atam onu daim xatırlamaqdadır. Yolunda nə qədər sədlər çəkilmiş olsa belə, o, onları qətiyyətlə dəf edə bilib. Lakin bütün bunlar onun özünün canına verdiyi böyük əzab-əziyyətin hesabına baş verib. Mən demirəm ki, atam qəhrəmandır, amma o, mənim bu yazımın, əlbəttə, ən başlıca baş personajıdır. Ona görə yox ki, bunu mən belə istəyirəm. Ona görə ki, onun varlığını, kimliyini xarakterizə edən bütün detallar məhz onun şəxsi keyfiyyətlərindən qaynaq alıb, ortaya çıxıb.

Atamı bir neçə tərəfdən xarakterizə edə bilərəm: bir vətən oğlu kimi, bir övlad kimi, ata-anasına ürəkdən bağlılığı, anadan olduğu elə-obaya övlad sevgisini heç vaxt əsirgəməyən kimi. Bu baxımdan Nizami Tağısoyun "Şilyan özü, sözü - çeşmənin gözü" (Bakı, 2009) kitabını oxumaq kifayət edərdi. Bu kontekstdə onun bütün keyfiyyətləri ən yüksək əyarlıdır. Qardaş kimi, o, bütün qardaş-bacılarına, qohum-əqrabasına daim yararlı, canıyananlığı ilə seçilən bir insan kimi ortadadır. Ata kimi, bizi gözü ilə sanki od götürə-götürə böyüdüb. Hər birimizin üstündə elə əsib ki, onu sözlə demək bəlkə də mümkün deyildir. Bir müəllim kimi, orta məktəbdə işlədiyi illərdə adi kənd şagirdlərində rus dilinin öyrənilməsinə cəlb etdiyi uşaqlarda biliyə, maarifə oyatdığı marağı göz önünə gətirib təsəvvür etmək olmur. Ali məktəb auditoriyalarında mühazirəçi kimi, atam istər rus ədəbiyyatı, istər Azərbaycan ədəbiyyatı, istər türk xalqları ədəbiyyatı, istərsə də tərcümə nəzəriyyəsi və s. fənlərdən mühazirələr dedikdə, bu mühazirələr təkcə mühazirə kimi yox, həm də tələbələrlə qarşılıqlı mükalimə, dialoq şəraitində aparılması ilə fərqlnir. Tələbələr 90 dəqiqənin necə keçdiyindən sanki xəbərsiz olurlar. Bunu mən hazırda atamla birgə çalışdığım Bakı Slavyan Universitetində mühazirələr apardığım zaman tələbələrin özündən eşitmişəm. Ədəbiyyatşünas-tənqidçi kimi, o, Azərbaycan ədəbiyyatının istər klassik, istər müasir dövrünün təhlillərində orijinal yanaşma, baxış konsepsiyasına malik alim kimi özünü sübut etməkdədir. Türk xalqları ədəbiyyatının sərrafı kimi, özbək, türkmən, qazax, qaraqalpaq, qaraçay, noğay, kumux, malkar, Kuzey Kıbrız, qırğız xalqlarının folklorunu, eposunu, ədəbiyyatını elə şəkildə araşdırmalara cəlb edir ki, bu təhlillər həmin xalqların ədəbiyyatşünasları tərəfindən böyük maraqla qarşılanıb. Atamın türk xalqları folkloru və ədəbiyyatı sahəsindəki araşdırmaları "Qaraqalpaq ədəbiyyatı" (2007, 2015), "Qaraçay ədəbiyyatı" (2016), "Qazax xalq qəhrəmanlıq dastanı "Koblandı-batır" (2017), "Alaş-Orda: qazax dövlətçiliyinin tarixində əhəmiyyəti" (2018), "Muxtar Auezovun yaradıcılığı: ənənədən novatorluğa" (2019) və s. kimi tədqiqat əsərləri türkoloji ədəbiyyatşünaslığımızın daha çox yadda qalacaq səhifələrindəndir.



Atamın həyatının əksər uğurlarına ailəmizin üzvləri şahidlik etmişik. O, gecə-gündüz bilmədən çalışıb. Özünə, öz sağlamlığına rəhmi gəlmədən yazıb, araşdırıb, təhlil edib, özü ilə folklorumuz, eposumuz, ədəbiyyatımız, bədii-fəlsəfi fikrimiz arasında sıx bir ülfət yaradıb. Atam Nizami Tağısoy istər klassikamıza müraciət edib, istər türk xalqlarının qəhrəmanlıq dastanlarına baş vurub, istər türk xalqlarının etnogenetik bağlarını öyrənməyə səy göstərib, istər tərcümənin nəzəri-tarixi məsələlərini çözməyə çalışıb, istərsə də XX əsr rus ədəbiyyatının klassik nümayəndələrinin yaradıcı simalarını ədəbiyyatşünaslığımızda canlandırıb - bütün hallarda çeynənmiş yanaşmalardan istifadə etməyib, özəl və fərqli təffəkürü ilə fikirlərinə meydan verib, özünü həmin sahənin kamil mütəxəssisi kimi təsdiq etməyincə elmi fikrini cilalayıb, ortaya qoymayıb.

Professor Nizami Tağısoyun digər çoxsaylı tədqiqatçı-alimlərdən ən başlıca fərqi ondan ibarətdir ki, o, təhsil aldığı rus dilinin qrammatikasına - morfologiyasına, sintaksisinə, üslubiyyatına, leksikasına, leksikoqrafiyasına, frazeologiyasına, onomastikasına, fonetikasına, fonologiyasına, paremiologiyasına - bütün incəliklərinin hamısına yetərincə yiyələnmiş mütəxəssislərdəndir. Bu da, hesab edirəm ki, atamın tədqiqatlarını daha geniş və dərinləşdirilmiş planda aparmasına şərait yaradır.

Azərbaycanımızın ən prestijli və zəngin elmi-pedaqoji ənənələri ilə seçilən Bakı Slavyan Universitetində məhz bu böyük alimin rus bölmələrində apardığı mühazirələri bu göstəricisinə görə də tələbələr tərəfindən daha maraqla dinlənilir. Atamın türk xalqları ədəbiyatına həsr etdiyi qaraqalpaq nağıllarının və dastanlarının tədqiqi, qaraqalpaq klassik ədəbiyyatı, XX əsr ədəbiyyatı, qaraçay ədəbiyyatı, noğay ədəbiyyatı, malkar ədəbiyyatı, qazax ədəbiyyatı nümayəndələrinin yaradıcılığının tədqiqi, düşünürəm ki, daha geniş araşdırma və tədqiqatlarda nəzərdən keçiriləcək, bu yorulmaz alimin elmi yaradıcılığının dəyəri də məhz bundan sonra veriləcəkdir.

Atam Nizami Tağısoyun elmi-nəzəri yaradıcılıq istiqamətləri o qədər tutumlu, aktual və gərəklidir ki, o, hansı ədəbiyyat, hansı ədəbi şəxsiyyət, hansı əsər haqqında mülahizələr irəli sürür sürsün, bu kontekstdə alimlər onun təfəkkürünün özəl cizgilərini görürlər. Bu baxımdan atamın qələmə aldığı orijinal əsərlər "Poetik tərcümə" (2001) , "Şilyan özü, sözü -çeşmənin gözü" (2009), "Səftər Həsənzadə.Vətən həsrətli, barıt qoxulu sətirlər" (2009), "Etnos və epos: keçmişdən bu günə" (2010) , "Meyxananın poetikası" (2011) "Elçinin "Baş" romanı struktur-fuksional təhlil müstəvisində" (2017), "Nəsimi dini-fəlsəfi təlimində Haqqın və insanın dərki" (2020) monoqrafik araşdırmaları gələcək tədqiqatçıların dəfələrlə müraciət edəcəyi mənbələr kimi həyat vəsiqəsi qazanmışlar.

Atamın qaraqalpaq etnik-poetik yaddaşına müraciəti nəticədə "Qaraqalpaq xalq nağılları", "Qaraqalpaq ədəbiyyatı" (iki nəşrdə: rus və Azərbaycan dillərində ortaya çıxması), qaraqalpaq klassiki Hacıniyaz poeziyasından bu sətirlərin müəllifi ilə birgə orijinaldan etdiyi tərcümələr (Hacıniyaz. Şeirlər. Bakı, 2020) Azərbaycan-qaraqalpaq qarşılıqlı ədəbi əlqələrinin qızıl səhifələrindən biri kimi ortadadır.

Bu gün professor Nizami Tağısoy 70 illiyini qeyd etdiyi bir ərəfədə də o, eyni məsuliyyət, eyni şövq və yaradıcılıq ehtirası ilə işləməkdədir.

Mən atamın əsasən lektorluq, pedaqoqluq, tədqiqatçılıq, alim-nəzəriyyəçi, türkoloq-ədəbiyyatşünas kimi keyfiyyətləri haqqında danışdıqda onu səciyyələndirən digər cəhətlərindən söhbət açmadım. Atam olduqca dostcanlı bir şəxsiyyətdir. Onun Heydər müəllim, Məmməd Qocayev, Adil müəllim, Malik müəllim, İslam müəllim, İsmayıl müəllim, Səlahəddin müəllim, Əflatun müəllim, Elman müəllim və onlarca bu kimi çoxsaylı ürək dostları vardır. O, dostları, dostları da onunla fərx edirlər.

Atam professor Nizami Tağısoy gənc Azərbaycan və türk alimlərinin yetişməsində böyük rolu olan elm fədaisidir. Onun indiyə qədər 50-yə yaxın magistri, neçə-neçə fəlsəfə doktorları bu gün müxtəlif sahələrdə bu fədakar insanın yolunu fəxarətlə davam etdirməkdə, ona başucalığı gətirməkdədirlər.

Atamın elmi araşdırmaları ilə qaraqalpaq, qazax, qaraçay, özbək, türkmən, başqurd, tatar, noğay, qaqauz, kumux və digər xalqların sənət nümayəndələri və alimləri yaxından maraqlanırlar. O, XXI əsrdə Azərbaycandan kənarda əsərləri yetərincə geniş nəşr olunan alimlərimizdən biri kimi tanınmaqdadır.

Böyük və fədakar alim atam Nizami Tağısoyun indiyədək 50-dən artıq Beynəlxalq konfrans və simpoziumlarda iştirakı, bu tipli mötəbər elmi məclislərdə məruzə və çıxışları Moskvada, Daşkənddə, Kazanda, Nökisdə, Minskdə, Ufada, Tbilisidə, Çerkesskdə, Maxaçkalada, Aşqabadda və s. daim böyük rəğbətlə qarşılanmışdır.

Son 30 ilə yaxın müddət ərzində atam Azərbaycan-qazax ədəbi əlaqələrinin intensivləşməsində və inkişafında göstərdiyi xidmətlərə görə Qazaxıstan Əl-Fərabi adına Ümummilli Universitetinin gümüş medalına, Qazaxıstan Respublikasının Azərbaycan Respublikasındakı Fövqəladə və Səlahiyyətli Səfirinin diplomuna layiq görülmüşdür. Hazırda professor Nizami Tağısoy bu istiqamətdə araşdırmalarını ardıcıl olaraq davam etdirməkdədir.

Atam Nizami Tağısoy zəngin və çoxşaxəli yaradıcılığı illərində irili xırdalı 22 monoqrafik tədqiqat əsəri, dərs vəsaiti, metodik vəsait, dərslik və araşdırmaların ortaya çıxmasına imza atmışdır. Bundan başqa ədəbiyyatşünas Nizami Tağısoyun yaradıcı düşüncəsinin bir qismini də müxtəlif illərdə qələmə aldığı şeirlər və poemalar təşkil edir. Onun "Axtaracaqsan məni" (2000), "Bəlkə dünya öz yolunu çaşıbdı" (2004), "Moy Azerbaydjan" (2018) kimi poetik məcmuələrinin ana xəttini Vətən, torpaq, dövlətçilik, ali mənəvi hiss və duyğular, ictimai-siyasi proseslərə özəl bədii münasibət öz əksini tapmışdır.

*(Davamı 7-ci səhifədə)*

*(Əvvəli 5-ci səhifədə)*

Şair Nizami Tağısoyun bədii yaradıcılığının mayasında vətənçilik və azərbaycançılıq ideyası daha yüksək hiss və duyğularla tərənnüm olunur. Bunu şairin bayatıları daha aydın sübut edir:

Əzizim yara baxdım,
Yar baxdı, yara baxdım,
Düşmən eldən qovulsun -
Oyansın qara baxtım.

Əzizinəm, bu ellər,
Bu obalar, bu ellər.
Oğullar kişi olsa,
Əldən getməz bu ellər.

Atam Nizami Tağısoyu şair kimi səciyyələndirmək üçün də əlimizdə yetərincə görümlü nümunələr vardır. Bu baxımdan onun “Haray dünyam!”, “Şilyanım”, “Yaşadacaq səni vətən”, “Qərənfilin faciəsi”, “Yalan cinayətdir, yalan fəlakət”, “Xalqım-ordum”, “Əlil oğlan”, “Axtaracaqsan məni”, “Çətin biləsən”, “Sizə gələcəyəm səndən xəbərsiz”, “Anama məktub” və s. şeirləri, “İgid ana ilə qorxaq övladın dastanı”, “Azərbaycanım”, “Təzadlar”, “Nəvəm mənə Xocalıdan danışdı” kimi dəyərli və özəl səpkili poemaları vardır. “Anama məktub” şeirində bu əbədi obrazın öz ilmələri, öz naxışları göz önünə gəlir. Burada biz şairin dünyaya sığmayan, ana məhəbbətinin ölçüyəgəlməyən yüksək poetik zövqlə tərənnüm etmək bacarığını necə nümayiş etdirməyinin qeyri-adi mənzərəsini görürük:

Nizami Tağısoy ədəbiyyatşünaslığımızda ilklərə imza atmış dəyərli şəxsiyyət və tənqidçilərdən biridir. O, hər zaman axtarışdadır. Bir dəqiqə belə vaxtını boş keçirməz. O, istirahətini də kitablarla edir, özünü onlarsız, ümumiyyətlə, heç vaxt təsəvvür etmir. Özünün ayrıca bir iş otağında böyük bir tarix, ədəbiyyat və mədəniyyət tarixi, türkoloji ədəbiyyatşünaslığın mühüm bir parçasını yaşadır. Ədəbiyyatla bağlı nə yeniliklər varsa, hər zaman hər kəsdən öncə bu haqda bəhs etməyi də məhz o, öz boynuna çəkir. Oxucularına yeni-yeni töhvələr bəxş edir və onların poeziyaya, ədəbiyyata, ədəbi tənqidə köklənmiş düşüncələrini intizarda qoymur. Bunu özünün həm vəzifə, həm də peşə borcu hesab edir. Atam Nizami Tağısoy haqqında deyəcəyim sözlərim çoxdur. Əlbəttə, bu kiçik yazıda ürəyimdən keçənlərin hamısını ortaya qoya bilmədim. Sağlıq olsun. Zaman yetişər, mən də içimdə olanların daha geniş və görümlü xətlərini qədirbilən xalqımızın və elm ictimaiyyətimizin diqqətinə çatdıraram.

Atamı 70 illik yubileyi münasibəti ilə ürəkdən təbrik edirəm. Ona Allahdan möhkəm can sağlığı, uzun ömür arzulayıram. Qoy bu yorulmaz ədəbiyyat mücahidinin elmi fəaliyyətində hər zaman yolu açıq, işıqlı olsun! Yazıb-yaratmaq eşqi tükənməsin, qələminin ucu süngüdən iti olsun!

Ata, bizim hamımız Sənin varlığından qürur duyur, Səninlə fəxr edirik!

Məmmədova, Şəbnəm.

***AMEA-nın Folklor İnstitutunun elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru***